# Qazi jurnalist İsmayıl Hüseynov...

**Azərbaycan mətbuatının 30-a qədər təmsilçisinin Vətən müharibəsində iştirakı onu göstərdi ki, mediamız bütün parametrləri ilə dövlətə, dövlətçiliyə xidmət edir. Zəfər savaşının salnaməsini yaradanların sırasında həmkarlarımızın da olması, söz səngərində mətin dayananların müharibə cəbhəsində də öndə getməsi qürurvericidir. Vətən çağırdı, onlar da qələmlərini süngüyə çevirib düşmən üstünə vardılar, cəbhələr yardılar, düşmənin başına od ələdilər, onu diz çökdürüb başı uca evlərinə qayıtdılar...**

*"Çox böyük təkidlərdən, tələblərdən sonra çox çətinliklə də olsa, səfərbərlik xidmətinin məni könüllü kimi müharibəyə göndərməsinə nail oldum"*

"Bakı-Xəbər"in qazi jurnalistlərlə bağlı layihəsinin budəfəki qonağı "Real" TV-nin əməkdaşı İsmayıl Hüseynovdur.

***- İsmayıl bəy, bir jurnalistin döyüşçüyə çevrilməsi çətin olmadı ki?***

- Qətiyyən. Çünki jurnalist elə döyüşçü deməkdir. Mütləq deyil ki, əynində əsgər forması, əlində silah səngərdə dayanıb düşmənə güllə atsın. Harda, necə, nə vaxt, hansı formada olmağımızdan asılı olmayaraq biz hər zaman döyüşmüşük, olduğumuz yeri səngər bilmişik və həmişə bayrağımıza xidmət etmişik. İstər 44 günlük Vətən müharibəsindən əvvəl, istər Vətən müharibəsi dövründə, istərsə də postmüharibə dövründə biz yenə də döyüşürük, öz səngərimizi qoruyuruq. Bəli, bu gün şərti olaraq bizim səngərimiz orturduğumuz masa, qarşımızdakı kömpüter, yaxud da ki əlimizdəki smartfondur. Amma biz döyüşürük. İndi informasiya müharibəsindəyik. Bizim amalımız dezinformasiyaların qarşısının alınması, "erməni təbliğatı" ilə mübarizə aparmaq, Azərbaycan dövlətçiliyinə xidmət etməkdir.

***- Deməl, hər zaman müharibəyə hazır olmusunuz.***

- Müharibə başlayan ilk gündən artıq qarşıma məqsəd qoydum ki, müharibəyə getməliyəm və Vətəni müdafiə etməliyəm. Çünki gözümü açıb forma görmüşəm, gözümü açıb bayraq görmüşəm. Dayım Birinci Qarabağ müharibəsində şəhid olub, atam döyüşüb, qazidir. Mən də onların yolunu davam etdirməli və qisas almalı idim. Müharibənin ilk günündə "Real" TV-nin xəbər qərargahında mütəmadi çalışırdıq və 24 saat fasiləsiz xəbər çatdırırdıq. Bu minvalla Bakıda iki həftə fəaliyyət göstərəndən sonra Gəncəyə ezam olundum. Gəncə hadisələri zamanı baş verənlərlə ölkə ictimaiyyətini və dünyanı tanış edirdik. Sonra Tərtərə, Goranboya, Ağdama ezam olunduq, ən qaynar nöqtələrdən məlumatlar çatdırırdıq, öz xidmətimizi məhz o sahədə edirdik. Ancaq bəlli bir məqam artıq insanın qərarlarının dəyişməsinə səbəb olur. O məqam gəldi. Mən Bakıya qayıdandan sonra Səfərbərlik Xidmətinə getdim. Çox böyük təkidlərdən, tələblərdən sonra çox çətinliklə də olsa, Səfərbərlik Xidmətinin məni könüllü kimi müharibəyə göndərməsinə nail oldum. İlk olaraq tamamlanma mərkəzinə, N saylı hərbi hissəyə getdik, orada təlim keçdik, bizi hazırladılar, daha sonra bizim qrupu, yəni Binəqədi Hərbi Komissarlığından yola düşən qrupu yarımqruplara böldülər və biz müxtəlif istiqamətlərdə döyüşlərə cəlb olunduq. Artıq noyabr ayının 5-də cəbhə bölgəsində idik. Bir qrupumuz Qubadlı, bir qrupumuz Laçın, bir qrupumuz Şuşa, bir qrupumuz Xocavənd və digər istiqamətlərə bölündü.

***- Döyüş yolunuz haralardan keçdi?***

- Mən və mənim döyüş yoldaşlarımın döyüş yolu Xocavənddən keçdi. Düzdür, təmaslı, yaxın döyüşlərdə iştirak etmədik, əsasən müdafiədə dayandıq. Bizim müharibədə iştirakımız müdafiə xarakterli idi. Çünki xüsusi təyinatlı qüvvələr və ön cəbhənin yarılmasında iştirak edən qüvvələr öndə döyüşürdülər. Biz isə alınan yüksəkliklərin qorunmasında, onların müdafiəsində iştirak edirdik. Təbii ki, hər an təhlükə idi, minomyot, artilleriya atəşi məsafəyə baxmır. Birinci, ikinci, üçüncü cərgədə olan səni bu mərmidən qorumur. Elə oldu ki, 2020-ci ilin 10 noyabrında müharibənin bitdiyini elan etdilər, ancaq xidmət davam edirdi. Çünki əldə olunan yüksəklikləri qoruyub saxlamaq, oradan müdafiəni təşkil etmək artıq bizim üzərimizə düşən ən birinci və vacib öhdəlik idi. Xocavənddən Qubadlının Xanlıq kəndinə, Şuşaətrafı mövqelərə, Laçının Güləbird, Səfiyan ərazilərinə, postlara müdafiəyə göndərildik. Bir müddətdən sonra biz Ağdama böləndük. Yanvar ayının 9-da, müharibənin bitməsindən iki ay sonra tərxis olunub Bakıya qayıtdım.

***- Müharibə qan-qada, faciə deməkdir, hər şəhid bir qəhrəmandır, hər qazi bir tarixdir. Siz də qəhrəmanlarımızdan birisiniz və cəmiyyətin, dövlətin münasibətindən razısızmı?***

- Özümüzü qəhrəman hesab etmirik. Çünki qəhrəman hesab etsək, artıq potensialımızı və mövcud gücümüzü itirmiş olacağıq. İnsan gərək eyforiyaya qapılmasın. Biz sadəcə borcumuzu yerinə yetirdik. Heç nə güdmədən, heç nə ummadan on dəfə də gedərik. Vətən, dövlət, millət, bayraq anlayışı bəzən ummadan, gözləmədən, qarşı tərəfdən imtiyaz istəmədən insanın qəlbindən, ruhundan, qanından, ideologiyasından, əqidəsindən və təfəkküründən doğan şərtlərdir. Ona görə də, razı, ya narazı olmaq kimi bir haqqımız yoxdur. Çünki biz əsgərik, biz xidmət edirik. Fərqi yoxdur, formanı geyinmişik, yoxsa çıxarmışıq. Xidmət davam edir. Bu bizim bayraq qarşısındakı borcumuz idi. Bu borcu yerinə yetirdik. Mən müharibəyə gedərkən hətta anam xəstə idi. Qohumlar mənə deyirdi ki, anan xəstədir, müharibəyə getmə, pis olar peşman olarsan, hər kəsə deyirdim ki, bütün valideynlərə can sağlığı arzulayıram, bütün valideynlər 5, 10, 30 ildən sonra olmayacaq, amma bu torpaq, bu Vətən, bu bayraq olacaq. Hələ də o düşüncədəyəm və bu gün özümü Azərbaycan Silahlı qüvvələrinin əsgəri, bayrağın bir fərdi hiss edirəm. Bu məsuliyyət necə ki, əsgərlikdə günün nizam qaydasında formalaşırdı, gündəlik həyatımızda da bəlli bir nizam-intizamı formalaşdırdıq ki, bu da bizim əqidəmizdən doğan məsələdir.



*"Deyirdik ki, ya bu bayrağı sancıb qayıdacağıq, ya da ki, bizi bu bayrağa büküb gətirəcəklər"*

***- Məktəb vaxtı əllərini ürəklərinin üstünə qoyub "Hüququndan keçən əsgər hərə bir qəhrəman oldu" deyə himnimizi oxuyan uşaqlar böyüyüb qəhrəman oldular. O əsgərlərimizin qəhrəmanlığını ifadə etmək üçün bəlkə də kitablar bəs etməz, elə döyüş yoldaşlarınız oldumu ki, gözlərinizin önündə şəhidlik zirvəsinə ucaldı? Onlar haqda nə deyərdiniz?***

- "Hüququndan keçən əsgər hərə bir qəhrəman oldu" dedikdə təkcə vətəndaş hüququ nəzərdə tutulmur. Ümumiyyətlə, yaradışın bəlli bir hüquqları var və lazım gələndə insan hüquqlarından keçməyi bacarmalıdır. Bu yalnız bir halda baş verir, məqsəd bayraq, torpaq, vətən olanda başqa hüquqlar ikinci plana keçir. Oradakı o qəhrəmanlar düşünmədən, gözlərini qırpmadan öz canlarından keçdilər. Biz bunun şahidi olduq. İnsanlar nəinki öz canlarından keçməyə, özlərini bu Vətən yolunda fəda etməyə razı idilər. Canından keçmək və fəda olmaq fərqli anlayışlardır, çünki insan canından keçə bilər, amma fəda olarkən bütün varlığını, əlində olan və olmayan, sahib olduğu və olmadığı hər bir şeyini fəda edir. Azərbaycanın dörd bir yanından gələn müxtəlif milli mənsubiyyətin nümayəndələri bir bayraq üçün vuruşurdu. Orada heç kəsi qan bağı bağlamırdı, amma tanımadığın, yad bir insan sənə görə öz sinəsini mərmi qarşısına verirsə, deyək ki, bəzən qan bağından da ötə bağlar, hisslər var. Hissə ad qoymaq düzgün deyil. Çünki bəzi hisslər var ki, onların adı sadəcə bayraqdır, Polad Həşimovdur, Çingiz Mustafayevdir, Yaxud Şuşadır. O hiss təfəkkürdən, əqidədən, ruhdan, beyindən, damarlarında axan qandan doğur. Yaradılışdan gəlir.

***- Vətən müharibəsinin iki illiyidir. Əlbəttə, ağrı-acılarla yanaşı sinənizə sığmayan qürur daşıyırsız. Qazandığımız qələbənin bir parçası olmaq nə deməkdir Sizin üçün?***

- Müharibəyə könüllü yollananda hər zaman deyirdim ki, döyüşə də buraxmasalar, birinci, ikinci cəbhədə olmasam, üçüncü səviyyəli arxa cəbhədə belə əsgərin corabını, paltarını yumaq, onun silahını təmizləmək, ona yemək belə bişirmək bir xidmətdir, yəni ona belə razı idim. Hətta Səfərbərlik Xidmətində deyirdim ki, göndərin orada istənilən işi görüm. Düzdür, burada jurnalist kimi də əsgər rolunda idik, döyüşürdük. İnsanın bu qələbədə payı olur, amma sırf o formanı geyinib ön cəbhədə olmaq, Azərbaycanın simvollarını, emblemlərini, Azərbaycan bayrağını çiynində daşımaq, məsuliyyəti ikiqat hiss etmək başqa bir hiss idi. Ona görə də düşünürəm ki, bu qələbədə bir faiz, yarım faiz payımız varsa nə xoş bizə, borcumuzdur. Biz bunu etməliydik. Elə məsələlər var ki, o barədə götür-qoy, tərəddüd etmək olmaz, qəti qərar verməlidir. Qərar qəti olmalıdır ki, məqsədə nail olunsun. Hamımızın belə bir amalı var idi və biz ona nail olduq.

***- Yenə müharibə olarsa getməyə hazırsınızmı?***

- Yenə müharibə olacaqsa gedəcəyəcəm və müharibə olmasa belə, bir əsgər kimi bu bayrağa, bu dövlətə xidmət edəcəyəm. "Ölsək şəhidik, qalsaq qaziyik" - bu bizim şüarımız idi. Deyirdik ki, ya bu bayrağı sancıb qayıdacağıq, ya da ki, bizi bu bayrağa büküb gətirəcəklər. Bizim amalımız o bayrağın dalğalanmasıdır.

***- Heç zaman unuda bilmədikləriniz çoxdurmu?***

- Cəbhədəki o birliyi, o vəhdəti heç zaman unutmayacağam. Bakıdan cəbhə bölgəsinə çatana qədər yol boyu bizim nəqliyyat vasitəsinə əl edən uşaqları, qadınları, qocaları, əlində olan son tikəsini bizimlə bölüşən qardaş-bacılarımızı heç zaman unutmayacağıq. Əlində olan bir stəkan suyu, bir parça çörəyi, bir peçenyeni on yerə bölməyi bacaran qardaşları unutmaq mümkünsüzdür. Bu gün hər hər biri ilə əlaqəmiz var, görüşürük, dostluğumuzu davam etdiririk, bu dostluq heç bir dostluğa bənzəmir. Çətin günlərdə canı canından, qanı qanından olmayan, həyatda birinci dəfə gördüyün insanın sənə görə canını təhlükəyə atmaq risqini heç zaman unutmayacağam. Bu kimi amillər insan həyatında həm də onun formalaşması, insanın insan kimi yaşaması üçün çox vacibdir.

***- Hansı təltiflərə layiq görülmüsüz?***

- "Vətən müharibəsi iştirakçısı" medalı təqdim olunmalıdır, təltif olunmalıyam. Amma hələ ki, siyahı tam hazır deyil, tam olaraq hamıya təqdim olunmayıb. Onu təqdim etməlidirlər. Etsələr də, etməsələr də önəmli deyil, çünki bizim vicdanımız, əqiqəmiz təmizdir, hər kəs öz daxilində bilir ki, öz borcunu yerinə yetirib. Bu gün biz rahatıqsa, bu istənilən təltifdən daha böyükdür, bundan böyük nəticə, bundan böyük uğur ola bilməz...

***İradə SARIYEVA***